*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 137-141* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091) Samirə Kərimova*

# ROMANTİK ƏDƏBİYYATDA AZƏRBAYCANLILARIN SOYQIRIMININ BƏDİİ TƏCƏSSÜMÜ
***(31 mart 1918-ci il)***

***Xülasə***

Məqalədə 31 mart 1918-ci il azərbaycanlıların soyqırımı haqqında ilk bədii nümunələr: hekayələr, şeirlər, bədii-publisistik əsərlərdən söhbət açılır. 1918-ci il mart soyqırımlarının bədii ədəbiyyatda əksi əsasən Məmməd Səid Ordubadi, Mirzə Bala Məhəmmədzadə, Seyid Hüseyn, Əli bəy Hüseynzadə, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Ceyhun Hacıbəyli və digər görkəmli ədiblər tərəfindən geniş şəkildə ifadə olunması diqqətə çatdırılır. Ümumilikdə, "soyqırım" mövzusunun bütün dövrlərdə dünya ədəbiyyatında aparıcı istiqamətlərdən biri olması qeyd edilir.

**Açar sözlər:** soyqırım, deportasiya, faciə, demokratiya, şəhid

## ARTISTIC REFLECTION OF GENOCIDE OF AZERBAIJANIS IN THE ROMANTIC LITERATURE
***(31 March 1918)***

***Summary***

The article deals with the first artistic examples of the genocide of Azerbaijanis on March 31, 1918: stories, poems, literary and publicistic works. Reflection of genocide of March, 1918 is widely expressed by prominent writers and poets such as Mammad Said Ordubadi, Mirza Bala Mahammadzadeh, Seyid Huseyn, Ali bey Huseynzade, Jafar Jabbarli, Mahammad Hadi, Jeyhun Hajibeyli and other famous literary critics. In general, the issue of "genocide" also is mentioned as one of the leading trends in world literature at all times.

**Key words:** genocide, deportation, tragedy, democracy, martyr

## ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ГЕНОЦИДА АЗЕРБАЙДЖАНЦЕВ В РОМАНТИЧЕСКОЙ ЛИТЕРАТУРЕ
***(31 марта 1918 г.)***

***Резюме***

В статье приводятся первые литературные образцы: рассказы, стихи, литературно-публицистические произведения о геноциде азербайджанцев 31 марта 1918 года. К вниманию привлечены литературные образцы в основном произведений Мамед Саида Ордубади, Мирзы Бала Мохаммедзаде, Сеида Гусейна, Алибека Гусейнзаде, Джафара Джаббарлы, Мохаммеда Хади, Джейхуна Гаджибейли и других известных литераторов, достоверно отражающие мартовские события 1918 года. В целом отмечается, что тема геноцида во все времена является одним из ведущих направлений в мировой литературе.

**Ключевые слова:** геноцид, депортация, трагедия, демократия, шехид

**Giriş.** XX əsrdə Azərbaycan türkləri dəfələrlə soyqırımlara, qətliamlara, təcavüzlərə məruz qalmışdır. Bu xalq son yüz il ərzində mürəkkəb ictimai-siyasi şəraitdə qanlı qırğınların, deportasiya-

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. E-mail: Akademiya-elm@rambler.ru

ların ağrılı, əzablı yollarından keçmişdir. Təcavüzlər, qətllər sonucda tarixi ərazilərimizin müəyyən hissəsinin işğalı ilə nəticələnmişdir. Xalqımızın yaşadığı qanlı hadisələr şairlərimizin, yazıçılarımızın müxtəlif janrlı əsərlərində bədii əksini tapmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası müstəqillik illərində soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul etmişdir. Bu hadisə ilə bağlı sistemli işin aparılmasına Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" [1] sərəncamdan sonra başlandı. Bu sərəncama əsasən 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Eyniadlı fərmandan sonra XX əsrdə Qafqaz regionunun və Azərbaycan tarixinin araşdırılması üçün geniş imkanlar yarandı. Qeyd edək ki, soyqırımla bağlı bu mühüm dövlət sənədlərinin qəbul edilməsindən sonra 31 Mart soyqırımı haqqında məqalələr, kitablar yazılmağa, tədqiqat işləri, elmi araşdırmalar aparılmağa, bu mövzuda konfranslar keçirilməyə başlandı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etmişdir [2].

XX əsrin əvvəllərində erməni-daşnak cəlladlarının Azərbaycan türklərinə qarşı törətdikləri soyqırımlarının bədii ədəbiyyatda əksi, əsasən, dövrünün tanınmış qələm sahibləri – Məmməd Səid Ordubadi, Mirzə Bala Məhəmmədzadə, Seyid Hüseyn, Əli bəy Hüseynzadə, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Ceyhun Hacıbəyli kimi ədiblərimizin irsində ifadə olunmuşdur.

1918-ci il qanlı Mart hadisələrində kütləvi insan qırğını millətsevər ziyalılardan biri kimi Seyidağa Axundzadəni də sarsıtmış və onu "Mart hadisəsi, 1918... yaxud Nuru paşa" adlı kitab yazmağa sövq etmişdir. Bu kitab soyqırım haqqında yazılan ilk bədii-publisistik kitabdır.

Mart soyqırımı haqqında ilk bədii nümunə – hekayə isə 1918-ci ilin iyulun 23-də Tiflisdə "Gənclər yurdu" adlı jurnalın 1-ci sayında nəşr edilən "Əksinqilabçılar" hekayəsidir. Mirzə Bala Məhəmmədzadənin beş hissədən ibarət olan "Əksinqilabçılar" hekayəsinin qəhrəmanı Moskva Darülfünununda oxuyan, bolşevik əqidəli "Azərbaycan türkü" Hüseyn bəydir. Hüseyn bəyin fikrincə, hürriyyət, istiqlal istəyən Azərbaycan, Türküstan, Tatarıstan, Krım türk gəncləri, doğrudan da, əksinqilabçıdırlar. Müəllif Hüseyn bəy haqqında tam təsəvvür yaratmaq üçün şahidi olduğu Bakı qətliamından dəhşətli bir mənzərəni təsvir edir: "Bakı həyəcanlı günlər keçirirdi. Şəhər od içində yanırdı. Pulemyot, top, tüfəng, qurşun səsilə paroxodların bombardmanı, camaatin qışqırığı, çoluq-çocuğun, qadın-qızların ah-fəryadı məhşəri andırırdı. Ölən, yanan, qaçan, çığıran, dağıdan, kəsən, kəsilən bir-birinə qarışmışdı" [3].

Bu müsibətdən təəssüflənməyən Hüseyn bəy milli qırğının günahsız qurbanlarına xəcalət çəkmədən yeni "əksinqilabçılar" deyir. Bu tip obrazları böyük satirik şair Mirzə Ələkbər Sabir XX əsrin əvvəllərində xalqa bu şəkildə nişan verirdi:

*"Neyləyim, ey vay, bu urusbaşdılar,*
*...Cümləsi kafirlərə yoldaşdılar".*

Professor Asif Rüstəmlinin də qeyd etdiyi kimi, "Əksinqilabçılar" hekayəsi mart qətliamından bəhs etməklə yanaşı, həm də çox ibrətamiz məsələləri özündə ehtiva edir [4].

XIX əsrin sonu XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, soyqırım törətməsini arxiv sənədləri ilə yanaşı, həmin illərin mətbuatında dərc edilmiş məqalələr də təsdiq edir. Həmin dövrdə "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Açıq söz", "Gənclər yurdu" və digər bu kimi mətbu orqanlarda Mart soyqırımı ilə bağlı bir sıra publisistik məqalələr, hekayələr, şeirlər dərc edilmişdir. 1919-1920-ci illərdə nəşr edilən demokratik mətbuat orqanı olan "İstiqlal" qəzetinin mart buraxılışları ümumilikdə 31 Mart soyqırımı hadisələrinə həsr edilmişdir. Həmin bu-

raxılışlarda, əsasən, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Mirzə Bala Məhəmmədzadə, Cəfər Cabbarlı, İbrahim Xəlil, Hacı Səlim Səyyah və digər ictimai xadim və ədəbiyyatşünasların çıxışları dərc edilmişdir.

Şərqin ilk demokratik cümhuriyyətinin – AXC-nin banisi Məhəmməd Əmin Rəsulzadənin "İstiqlal" qəzetində yazırdı ki, martın 31-i bizə Azərbaycan tarixi siyasətində unudulmaz 3 günü xatırladır... Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssənin əzəməti ilə unudulmazdır... 31 mart ikinci fəlakət günlərindən idi. Bu gün tarixin qeydində "aşura", "partlama" və hətta "Varfalamey gecəsi"ni xatırladan siyasi faciələrdən biri idi. Soydaşlarının faciəli taleyinə acıyan M.Ə.Rəsulzadə həmin çıxışında mart hadisələrindən – Azərbaycan türklərinin kütləvi şəkildə soyqırğınından millətsevər ziyalılarımızın da dərindən kədərləndiyini qeyd etmişdir.

Satirik şeirləri ilə geniş oxucu auditoriyası qazanmış, erməni nasistlərinin törətdiyi qırğını xain əllər tərəfindən xalqına arxadan zəhərli bir xəncər vurulması kimi təqdim edən Mirzə Bala Məhəmmədzadə 31 mart hadisələrinin əsl mahiyyətini belə açıqlayır: "Bu gün hürriyyəti-milliyyə və istiqlali – Azərbaycan fikri ilə oyanmış türk qəlbinə xain əllər tərəfindən zəhərli bir xəncər vurulmuşdur. Bu gün həyat və istiqbal əməli ilə çırpınan türk qəlbini susdurmaq istəmişlər. Bu gün ətrafını bürümüş qara dumanları yarıb parçalamağa başlayan Od yurdunun "Müqəddəs atəşi" "kəskin şimal ayısı" tərəfindən söndürülmək istənilmişdir" [5].

Hadisələrin ağırlığından, faciənin dəhşətlərindən sarsılan M.B.Məhəmmədzadə qəzəb və kədərini sözlərlə ovutmaq və baş verənləri gələcək nəsillərə çatdırmaq amacı ilə "***31 mart 1918 sənə***" başlıqlı məqaləsində daha sonra yazır: "Bu gün hürr bir millətin paytaxtı olan Bakımızda qanlar axmış, evlər talanmış, ata-babalarımız şəhid düşmüş, ana-bacılarımız əsir edilmiş. Bu gün – Bakı xalqı kəndi yurdunda qətliama, əsirətə və məhkumiyyətə məruz qalmışdır.

Qanlı gün...

Bu gün Bakının ətrafından axan neft çeşmələri qan çeşmələrinə mübəddil olmuşdur. Bu gün Bakı sahilini boyayan Quzğun dənizi qan dənizinə çevrilmişdir" [5].

1918-ci ildə Tiflisdə nəşr olunan "Qardaş qayğısı" qəzetində çap olunmuş məqalələr də mart soyqırımına qarşı etirazın bariz nümunəsidir.

**Əbdülsəlimzadə Məhəmməd Hadi** "Azərbaycan" qəzetinin 31 mart 1919-cu il tarixli 147-ci nömrəsində çap etdirdiyi "Şühədayi-hürriyyətimizin ərvahinə ithaf" şeirində qanlı Mart hadisələrinə münasibətini belə bildirir:

*Sizin məzarınız iştə qülubi-millətdir,*
*Bu sözlərim ürəyimdən qopan həqiqətdir,*
*Sizi unutmayacaq şanlı millətim əsla,*
*Əmin olun buna, ey zinəti-cəhani-fəna*
*Sizinlə buldu bu millət şərəfli istiqbal.*
*Sizinlə buldu bu millət həyati-puriqbal.*

*Bu gün də etmədə əhli-vətən sizi dəryad,*
*Salamlayır sizi iştə bu milləti-azad.*
*Müəbbədən diridir namınız bu dünyada,*
*Sizin də ruhunuz üçsun behişti-əlada.*
*Bizi xilas edərək pəncəyi-əsarətdən,*
*Nicatbəxş olarıq dəsti-əhli-vəhşətdən.*
*Çəkildiniz əbədi xüldizari-Rəhmanə,*
*Behişti-rəhmətə, yəni diyari-rəxşanə.*
*O, xununuzla açıldı bahari-hürriyyət,*
*Sizin də yurdunuz olsun behişti-ülviyyət! [6]*

Bu şeirdə şair vətənin azadlığı, xalq, millət yolunda canından keçən hər bir vətəndaşının ruhuna rəhmət və məkanlarının cənnət olmasını diləyir.

**Cəfər Cabbarlı** Mart soyqırımına həsr elədiyi şeirində faciə qurbanlarını anaraq belə deyir:

*Gülzari- vətən soldu,*
*Millət xari-zar oldu,*
*Hamı payimal oldu,*
*Dur, ey xar olan millət!*

*Pullularımız qafil,*
*Alimlərimiz cahil,*
*Oldu elimiz zayil,*
*Dur, ey xar olan millət!*

*Bir yandan ədu cəllad,*
*Bir yan naləvü fəryad,*
*Ol bu zülümdən azad,*
*Dur, ey xar olan millət!*

*Əl çək bu həqarətdən,*
*Qurtar bu əsarətdən,*
*Xar ol bu xəcalətdən,*
*Dur, ey xar olan millət! [7]*

Dərvişlər, əsasən, gənclər bu şeiri şəhidlərin yeddi və qırx mərasimlərində, məscid və küçələrdə günahsız qurbanlar üçün göz yaşı tökərək oxuyur, əslində isə xalqı maskalı düşmənə qarşı səfərbərliyə çağırırdılar.

Ən yaxın qohum və dostları Mart faciəsinin qurbanı olmuş **Hacı Səlim Səyyahın "**Mart ayı" şeirini həyəcansız oxumaq olmur... Hüznünü mart ayını günahlandırmaqla azaltmağa səy göstərən şair yazır:

*Mart ayı... Allah amandır, əlhəzər, min əlhəzər!*
*Mart ayı, çox qəmli aysan, tez qutar get müxtəsər.*
*Sən kimi mənhus bir aydan deyil məmnun bəşər.*
*Olmamış bəd yəni sən tək nə Məhərrəm, nə Səfər! [8]*

1918-ci ilin Mart hadisələrinə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qiymət verilməyə cəhd göstərilmişdir. AXC 1919 və 1920-ci illərdə martın 31-ni milli hüzn günü kimi qeyd etmişdir. Bu hadisələr sənədli şəkildə, həmin dövrün mətbuat səhifələrində, ziyan çəkmiş şəxslərin və şahidlərin hekayətləri əsasında yazılmış Məmməd Səid Ordubadinin "Qanlı sənələr" romanında, Cəfər Cabbarlının "Bakı müharibəsi", "1905-ci ildə" dram əsərlərində öz bədii əksini tapmışdır.

**Nəticə.** XX əsr ərzində Azərbaycan türklərinə qarşı törədilən soyqırımların bədii ədəbiyyatda və publisistikada əksi ilə yanaşı, həmin materialların təbliği də mühüm addımlardan biridir. Bu kimi təbliğatlar xalqımızın milli-mənəvi yaddaşının oyanmasında və milli özünüdərk məsələlərində aparıcı mövqe tutur.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı. Bakı şəhəri, 26 mart 1998.
2. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Sərəncamı. Bakı şəhəri, 18 yanvar 2018-ci il.
3. Məhəmmədzadə Mirzə Bala. "Əksinqilabçılar" hekayəsi. "Gənclər yurdu" jurnalı. Tiflis. 1918, 23 iyul.
4. Rüstəmli Asif. Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda (mart,1918). "Bizim əsr" qəzeti. 2003, 15 aprel.
5. Məhəmmədzadə Mirzə Bala. 31 mart.... "İstiqlal" qəzeti, 1919, mart.
6. Əbdülsəlimzadə Məhəmməd Hadi. Şühədayi-hürriyyətimizin ərvahinə ithaf. "Azərbaycan" qəzeti, 31 mart 1919, №147.
7. Cabbarlı Cəfər. Mərsiyə. "İstiqlal" qəzeti. 1919, mart.
8. Hacı Səlim Səyyah. "Mart ayı" şeiri. "Bəsirət" qəzeti, 1919, mart.